# **Həftəlik**
# *Bülleten*

**118**
**21 Noyabr 2025**



- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Azərbaycanda ilk dəfə olaraq WUF13 çərçivəsində liderlərin zirvə toplantısı keçiriləcək.**

Azərbaycanda ilk dəfə olaraq 13-cü Ümumdünya Şəhərsalma Forumu (WUF13) çərçivəsində liderlərin zirvə toplantısı keçiriləcək. Bunu Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri, WUF13-ün milli koordinatoru Anar Quliyev diplomatik korpus üçün WUF13-ə həsr olunmuş brifinqdə bildirib. “Azərbaycan forumun əhəmiyyətini və təsirini artıracaq bir sıra yeni təşəbbüslər həyata keçirir. WUF ilk dəfə olaraq liderlərin zirvə toplantısını təşkil edəcək, bu sammit dövlət və hökumət başçılarını bir araya gətirərək şəhərlərimizin gələcəyini müzakirə etməyə imkan verəcək. Bu yenilikçi addım Azərbaycanın qlobal prioritetlərin formalaşmasında əhəmiyyətli siyasi mövqe ortaya qoymaq istədiyini vurğulayır”,- deyə Quliyev bildirib. Bu yenilənmiş format siyasi dialoqu gücləndirəcək, qərar mübadiləsini sürətləndirəcək və ölkələrə şəhər və mənzil prioritetlərini həll etməkdə konkret nəticələrin əldə olunmasına töhfə verəcək. WUF13 17-22 may 2026-cı il tarixlərində Bakıda keçiriləcək. Forum BMT-nin UN-HABITAT Proqramı ilə Azərbaycan hökuməti əməkdaşlığı çərçivəsində təşkil olunur. Tədbir müxtəlif ölkələrdən hökumət, bələdiyyə, özəl sektor, vətəndaş cəmiyyəti, gənclər və akademik dairələr, eləcə də beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirəcək.



**Azərbaycanda nəhəng zavod tikiləcək.**

Azərbaycanda yeni nəhəng sənaye müəssisəsinin – dəmir zavodunun tikintisi başlanacaq. Yeni müəssisə Azərbaycanın Qazaxıstanla birlikdə yaratdığı “Azerbaijan Metal Company” MMC tərəfindən inşa ediləcək. Yeni zavodun Şəmkir rayonu ərazisində inşa edilməsi nəzərdə tutulub. “Azerbaijan Metal Company” MMC birgə müəssisəsi bu il sentyabrın 23-də “Azergold” QSC-nin törəməsi olan “Daşkəsən Dəmir Filiz” MMC və Qazaxıstanın “Fonte GreenMet Investments Fund OEIC Limited” şirkəti tərəfindən təsis olunub. Yeni zavodun illik istehsal gücü 2 milyon ton olacaq. Bu zavodun inşası Azərbaycan iqtisadiyyatına illik 694 milyon dollarlıq töhfə verəcək. Təqribən 1 600 nəfərin birbaşa və dolayı şəkildə işlə təmin olunacağı zavodun 2029-cu ilin ortalarında istismara verilməsi nəzərdə tutulur. Yeni zavodun tikintisi üçün xarici banklardan və maliyyə təşkilatlarından kredit cəlb olunacaq. Noyabrın 13-də Çinin paytaxtı Pekində “Azerbaijan Metal Company” MMC və Çinin “Sinosteel Equipment & Engineering Co., Ltd” şirkəti arasında zavodun inşası üçün bank təyinatlı texniki-iqtisadi əsaslandırma sənədinin (TİƏ) hazırlanması üzrə müqavilə imzalanıb. Bu şirkət, dəmir filizinin emalı ilə bağlı müəssisələrin qurulması və idarə edilməsində avadanlıqların inteqrasiyası, yüksək texnologiyaların tətbiqi və elmi yanaşmaların tətbiqi üzrə xidmətlər göstərir.



**Azərbaycan dayanıqlı şəhər inkişafı üzrə aydın baxış nümayiş etdirir - UN HABITAT.**

Azərbaycan dayanıqlı şəhər inkişafı sahəsində aydın və güclü baxış nümayiş etdirir. Bunu Bakıda keçirilən BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) xarici əlaqələr, strategiyalar, biliklər və innovasiyalar üzrə direktoru WUF13 çərçivəsində jurnalistlərə verdiyi açıqlamada bildirib. “Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcək ölkə və şəhərin seçimi ciddi və rəqabətli prosedur əsasında həyata keçirilir. Maraq göstərən şəhər və ölkələr UN-HABITAT-a müraciət və təkliflərini təqdim edir və qurum onları hərtərəfli qiymətləndirir. Əsas meyarlar sırasında şəhər və ölkənin dayanıqlı şəhərsalma, əlçatan mənzil təminatı və bu sahəyə aid məsələlərə sadiqliyi dayanır”. “Bu göstəricilər əsasında müəyyən edilib ki, Bakı və Azərbaycan bütün tələblərə tam uyğun gəlir. Biz Bakı və bütövlükdə ölkənin dayanıqlı şəhər inkişafı və adekvat mənzil təminatı sahəsində aydın və güclü baxış nümayiş etdirdiyinə inanırıq”, - deyə Edlam Yemeru vurğulayıb. “Burada mədəniyyət və müasirlik, ənənə və innovasiya harmonik şəkildə vəhdət halına gəlir. Bu isə o deməkdir ki, şəhər dayanıqlı inkişaf sahəsində çoxsaylı perspektivli həllər təklif edə bilər. Məhz buna görə Azərbaycan Ümumdünya Şəhərsalma Forumunun ev sahibi seçilib”, – deyə o söyləyib.



**Azərbaycan gips və anhidrit istehsalını artırıb.**

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 502 min ton gips və anhidrit istehsal edilib.

Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 14 % çoxdur.

Bu il noyabr ayının 1-nə, ölkədə 69,8 min ton hazır məhsul ehtiyatı olub.

2024-cü ildə Azərbaycanda 570,5 min ton gips və anhidrit istehsal edilib ki, bu da 2023-cü illə müqayisədə 4,8 % azdır.



**Azərbaycanda şüşə istehsalı cüzi artıb.**

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 8 milyon 441 min kvadratmetr tikinti şüşəsi istehsal edilib.

Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 0,2 % çoxdur.

Bu il noyabr ayının 1-nə, Azərbaycanda 1 milyon 604 min kvadratmetr hazır məhsul ehtiyatı olub.

2024-cü ildə Azərbaycanda 10 milyon kvadratmetr tikinti şüşəsi istehsal edilib ki, bu da 2023-cü illə müqayisədə 14,3 % çoxdur.



**Azərbaycan bentonit istehsalını 37 %-dən çox artırıb.**

Bu ilin ilk yanvar-oktyabr aylarında Azərbaycanda 264,1 min ton bentonit istehsal edilib.

Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 37,2 % çoxdur.

Bu il noyabr ayının 1-nə, ölkədə 243,1 min ton hazır məhsul ehtiyatı olub.

2024-cü ildə Azərbaycanda 253,1 min ton bentonit istehsal edilib ki, bu da 2023-cü ilə nisbətən 2 dəfə çoxdur.



**Azərbaycanda kərpic istehsalı 10 %-ə yaxın artıb.**

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycanda 554,1 min kubmetr tikinti kərpici istehsal edilib.

Dövlət Statistika Komitəsinə istinadən xəbər verilir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 9,6 % çoxdur.

Bu il noyabr ayının 1-nə, ölkədə 13,8 min kubmetr hazır məhsul ehtiyatı olub.

2024-cü ildə Azərbaycanda 622,3 min kubmetr tikinti kərpici istehsal edilib ki, bu da 2023-cü ilə nisbətən 0,7 % çoxdur.



**Sərginin adı: WORLD WATER CONGRESS 2025**
**Tarixlər: 01 - 05 dekabr 2025-ci il,**
**Məkan: Mərakeş (Mərakeş)**
Beynəlxalq Konqres Qlobal Su Təhlükəsizliyi və Davamlılığının Əsasları: Bilik, Texnologiya və Siyasət mövzusuna həsr olunub

**Sərginin adı: ROOF EXPO 2025**
**Tarixlər: 02 - 04 dekabr 2025-ci il,**
**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**
Polşa beynəlxalq dam örtüyü sərgisi. Roof Expo, dam örtüyü sənayesini birləşdirən bir biznes platformasıdır. Beynəlxalq brendlərin, peşəkar alətlərin və xidmətlərin qabaqcıl həllərinin nümayişi.

**Sərginin adı: WOODEX MOSCOW 2025**
**Tarixlər: 02 - 05 dekabr 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Ağac emalı sənayesi üçün ağac məhsulları, maşınlar, avadanlıqlar, materiallar üzrə beynəlxalq ixtisaslaşmış ticarət sərgisi

**Sərginin adı: IRAQ DEVELOPMENT ROAD EXPO 2025**
**Tarixlər: 08 - 11 dekabr 2025-ci il,**
**Məkan: Bəsrə Beynəlxalq Sərgi Meydanı, Bəsrə (İraq)**
İraq Beynəlxalq Yol, Tikinti, İnfrastruktur və Elektrik İnkişafı Sərgisi. İraqı qonşu ölkələrlə birləşdirən nəqliyyat marşrutu yaratmaq və bununla da İraq, Türkiyə və Avropa arasında ticarət və mobilliyi artırmaq məqsədi daşıyır.

**"İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Elan Naxçıvan şəhər Sukanal İdarəsi üçün dəmir-beton məmulatların satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elçin İbrahimov, Aparıcı məsləhətçi
Email: Elcin.İbrahimovi@isst.az
Əlaqə telefonu: +994 50 323 64 99



**AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİ MƏHKƏMƏ EKSPERTİZASI MƏRKƏZİ TENDER KEÇİRİR.**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzi açıq tender elan edib.
Tender Mərkəzin İnzibati binasında cari təmir işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tamerlan Bağırov, Maliyyə və təminat şöbəsinin məsləhətçisi
Email: Tamerlan.bagirov@justice.gov.az
Əlaqə telefonu: +994 55 676 12 21



**"DÖVLƏT TİBBİ-SOSİAL EKSPERTİZA VƏ REABİLİTASİYA AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

"Dövlət Tibbi-sosial Ekspertiza Və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Şirvan Reabilitasiya Mərkəzinin inzibati binasının cari təmir işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fidan Şərifzadə, Mütəxəssis
Email: fidan.sharifzada@sosial.gov.az
Əlaqə telefonu: +994 12 526 01 01 (8092)



**"DÖVLƏT SOSİAL MÜDAFİƏ FONDU" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN ETDİ.**

"Dövlət Sosial Müdafiə Fondu" Publik Hüquqi Şəxsi açıq tender elan edib.
Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi prospekti 80 ünvanında yerləşən inzibati binasının əsaslı təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zeynəb Axundova, Böyük mütəxəssis
Email: zeynab.akhundova@sosial.gov.az
Əlaqə telefonu: +994 12 530 29 03



**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ TENDER ELAN ETDİ.**

Azərbaycan Memarlıq Və İnşaat Universiteti açıq tender elan edib. Universitetin 1 saylı tədris korpusunda qapı və pəncərələrin cari təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sarvan Səfərov, Satınalma və təchizat şöbəsinin müdiri
Email: servan_685@mail.ru
Əlaqə telefonu: +994 12 510 39 45





**www.atmia.az**